# Mədəni irsin tədqiqində və təbliğində muzeylərin rolu



Xəbər verildiyi kimi, 10-12 oktyabr tarixlərində Bakıda Beynəlxalq Muzeylər Şurasının (ICOM) Dekorativ sənət, dizayn muzeyləri və kolleksiyaları (ICDAD), Tarixi ev muzeyləri üzrə beynəlxalq komitələrinin (DEMHIST) "Dekorativ sənət və interyer" mövzusunda beynəlxalq konfrans keçirilib.

14 ölkədən 42 nümayəndənin iştirak etdiyi tədbirdə "Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq" İctimai Birliyinin İdarə Heyətinin üzvü, sədrin birinci müavini, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov "Mədəni irsin tədqiqində və təbliğində muzeylərin rolu" adlı məruzə ilə çıxış edib. O, Azərbaycanda muzey işinin inkişaf etdirilməsinin dövlətimizin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu, bu gün ölkəmizdə mövcud olan muzey işinin müasir standartlar səviyyəsində qurulması üçün müvafiq tədbirlər görüldüyünü bildirib.

Natiq, eyni zamanda, qeyd edib ki, Ümummilli Lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla həyata keçirilir.

P. Gözəlov, həmçinin vurğulayıb ki, çoxsaylı tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət edilib və dağıdılıb.

"İşğal olunmuş torpaqlarımızda 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalmışdır. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv etmişlər. Şuşa şəhərinin özündə 8 muzey fəaliyyət göstərmişdir. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilmişdir. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi erməni silahlı güvvələri tərəfindən tamamilə məhv edilmişdir"- deyə, o bildirib.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

iki sahil.- 2018.- 25 oktyabr.- S.13